# LAÇINLI NEMƏT BƏXTİYAR

**Onunla şəxsi tanışlığımın yaşı o qədər də uzun deyil. Və bu tanışlığın da səbəbkarı sadə bir dildə ifadə etsəm, körpüsalanı Rəşad Məcidin həyatda gördüyü ilk diri şairi Nazim Əhmədli olubdu. Bu Nazim Əhmədli qələminə və sözünə çox böyük ehtiram göstərir və necə deyərlər, qələmin və sözün də urvatlı olmasını həyatının prinsipinə çevirib. Ona görə də çevrəsində həmişə işıqlı, dəyərli ziyalılar, söz-söhbət adamları olub və bu gün də var**

Dəqiq tarixi yadımda qalmasa da, amma onu dəqiq bilirəm ki, günlərin birində Nazim Əhmədli iş telefonuma zəng vurdu. Hal-əhvaldan sonra dedi ki, Nemət Bəxtiyarı tanıyırsan? Mən də cavabında bildirdim ki, Nemət müəllimi şəxsən tanımıram, amma imzasını izləyirəm, xüsusən "525-ci" və "Kredo" qəzetlərində ardıcıl çıxış edir. Bir-iki dəfə də elektron poçtumuza göndərdiyi yazıları "Ədalət"də çap etmişik.

Bu dialoqdan sonra Nazim bildirdi ki, bu günlərdə səni onunla şəxsən tanış edəcəm, necə bir işıqlı adam olduğunu özün görəcəksən. Bəli, günlərin birində Nazim Əhmədli dünyanın o biri başından bir az bəriyə, yəni Kanadaya səfərindən qayıdıb bizi bir araya topladı. Və Nemət müəllimlə çay süfrəsi başında Nazimin səfər təəssüratlarını dinləyə-dinləyə tanışlığımızın əsasını qoydu. İndi o vaxtdan xeyli müddət keçib. Artıq biz necə deyərlər, eyni dərdin daşıyıcısı olduğumuzdan sözümüz-söhbətimiz həmişə üst-üstə düşür və telefon zənglərində də, görüşlərində də Laçından, Qarabağdan, işğal olunmuş torpaqlarımızdan danışır, fikirlərimizi bölüşürük. Bu bölüşmələr də bizi doğmalaşdırıb

Bu günlərdə diqqətimi bir tərcümeyi-hal çəkdi. Gördüm ki, dəyərli dostumuz Nemət Bəxtiyarın 60 yaşına cəmi üç-dörd gün qalıbdı. Lap dəqiq vurğulasam may ayının 16-da Laçın rayonunun Ərdəşəvi kəndində dünyaya gəlmiş Nemət Bəxtiyar oğlu İsbəndiyarovun 60 yaşı tamam olur. Dağlar qoynunda, qartalların qanad saldığı, bulaqların, çeşmələrin züm-zümə etdiyi bir guşədə doğulmuş Nemət qardaşım təpədən-dırnağa dağ adamıdı. Səmimiyyəti, söz-söhbəti, hətta müəyyən jestləri də onun dağlardan gətirdiyini əlindən ala bilməyib. Kəndin özəlliklərini və gözəlliklərini yaşamış, sonra Şuşa Kənd Təsərrüfatı Texnikumunu bitirib elə doğulduğu rayonda da müxtəlif vəzifələrdə çalışmış Nemət müəllim müharibə veteranıdı, AJB-nin üzvüdür. İndi Bakının Xətai rayonunda məşhur Radio-zavodun yataqxanasına sığınıb, qaçqın həyatını yaşayır. İki övladının, beş nəvəsinin Laçınsız böyüməsini kənardan izləyir, özü də ürək ağrısıyla. Onun ağrıyan ürəyində Laçına dönəcəyi günə sonsuz ümid və inam var. Həmin o ümid və inamla da Laçından yazır, Laçından danışır, Laçından xatirələr söyləyir. Onu dinlədikcə mən də Qarabağa, Tuğa, Laçına gedib çıxıram...



**Bəli, Nemət qardaşım, bu da 60 yaş! Sən bu yaşda çox şeylər gördün, amma gördüklərinin çoxu da vətənsizlik oldu, ağrı-acı oldu. Yaxşı ki, sındırmadı bu ağrı-acı, bu vətənsizlik səni. Elə belə də döz və durr! İnamını əyilməyə və sınmağa qoyma. Çünki bizim inamımızdan başqa heç nəyimizi yoxdu. Mən də inanıram ki, sənin növbəti yubileyini Laçının bulaqlarının birinin başında, elə göy otların üstündə qeyd edəcəyik. Necə deyərlər, Laçına qayıtmaq eşqiylə yaşa, yarat və var ol! 60 yaşın mübarək!**

**ƏBÜLFƏT MƏDƏTOĞLU**

ədalət.-2017.-12 may.-S.3.